Müasir Azərbaycanın formalaşması və müstəqil respublikanın qurulması yolunda Ulu öndər Heydər Əliyevin dövlətə rəhbərlik etdiyi 1969-1982 və 1993-2003-cü illərdə ölkə iqtisadiyyatının bütün istiqamətlərində müşahidə olunduğu kimi tikinti sektorunda da Heydər Əliyevin rolu əvəzolunmazdır. Bu sahənin daha intensiv inkişafı, geniş tikinti potensialının yaradılması, sahə üzrə inkişaf proqramlarının qəbul edilməsi, yeni kadrların yetişdirilməsi və müvafiq layihələrə cəlb olunması məhz Ulu öndər Heydər Əliyevin Sovet İttifaqı zamanı Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1969-1982-ci illərə təsadüf edir.

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANIN TİKİNTİ SƏNAYESİNİN İNKİŞAFINDA ROLU

Ümummilli lider Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbər təyin olunarkən ilk növbədə geridə qalmış xalq təsərrüfatını sürətlə inkişaf etdirmək məqsədilə sovet ali hakimiyyət orqanları qarşısında 70-80-ci və qarşıdan gələn illər üçün möhtəşəm inkişaf proqramı qoydu. Azərbaycanın orta ittifaq səviyyəsindən geriləməsi prosesini dayandırmaq, iqtisadiyyatın inkişafının yeni strategiyasını hazırlamaq və bu sahədə islahatlar həyata keçirmək üçün real təkliflər irəli sürüldü.

Belə genişmiqyaslı proqramları həyata keçirmək üçün tikinti işlərini əhəmiyyətli şəkildə sürətləndirmək, onun maddi-texniki bazasını möhkəmləndirmək tələb olunurdu. Bununla əlaqədar, tikinti kompleksində yaranmış vəziyyəti dərindən təhlil etmək məqsədilə 1971-ci ilin iyul ayında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin tikinti məsələlərinə həsr edilmiş xüsusi plenumu keçirilmiş, tikintidə mövcud vəziyyət ətraflı təhlil olunmuş, nöqsanlar aşkarlanaraq, onların aradan qaldırılması üçün konkret tədbirlər planı təsdiq edilmişdi. Tikintidə mövcud vəziyyət bir qayda olaraq ən yüksək səviyyədə müzakirə olundu, tikinti kompleksində fəaliyyət göstərən nazirlik, komitə və idarə rəhbərlərinin şəxsi məsuliyyətinin artırılması, kapital qoyuluşunun səmərəli istifadə edilməsi, tikintinin müddətinin azaldılması və keyfiyyətinin yüksəldilməsi məsələləri Heydər Əliyevin şəxsi nəzarətində saxlanılırdı.

Faktlar göstərirki, 1969-1982-ci illər sovet dövründə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının ən yüksək dövrü olmuşdur. Bu illər ərzində respublikada iqtisadiyyatın bütün sahələri üzrə inkişaf əldə edilmişdir. 1971-1975-ci illər Azərbaycan iqtisadiyyatının dönüş mərhələsi kimi qiymətləndirilir. Bu illər ərzində sənaye məhsulu nəzərdə tutulmuş 43-46% əvəzinə 50% artmış, orta illik artım 1966-1970-ci illərlə müqayisədə 29% yüksəlmiş, sənayedə müsbət struktur dəyişikliyi aparılmışdır. Bu işlər sonrakı 1976-1982-ci illər ərzində də uğurla davam etdirilmişdir. Neftayırma və neft emalı zavodlarının tikintisinə, kimya və metallurgiya sənayesi və digər sahələrdə böyük həcmdə tikinti-yenidənqurma işlərinə başlanılmışdır.

Sosial-iqtisadi göstəricilərin respublika üzrə ildən-ilə yüksəlməsinin əsas səbəbi iqtisadiyyatın ən vacib sahələrindən biri olan tikinti kompleksinə dövlət tərəfindən ciddi qayğı və diqqətin artırılması ilə əlaqədar idi. Heydər Əliyevin təşəbbüsü ilə aparılan islahatlar tikinti materialları sənayesinin inkişafı, sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni kadrların hazırlanması kimi istiqamətlərdə ciddi irəliləyişlər əldə etməyə imkan vermişdir.

Tikinti kompleksində görülən işlərin Ulu öndərin daim diqqət mərkəzində olması bu sahədə çalışan rəhbər işçilərin, eləcə də əmək kollektivlərinin məsuliyyətini də artırmışdır. Nəticədə tikintinin əsas göstəriciləri əvvəlki illərə nisbətən dəfələrlə artmış, tikilən mühüm obyektlərin vaxtında və yüksək keyfiyyətlə istifadəyə verilməsi təmin edilmişdir. Onların sırasında Kür su kəmərini, "Neftçilər" və "Nizami" metro stansiyalarını, Yeni Bakı Neftayırma zavodunun emal kompleksini, Bakı Məişət Kondisionerləri zavodunu, Qaradağ rayonunda nəhəng Dərin Özüllər Zavodunu və bir çox digərlərini misal gətirmək olar.

Əhalinin məişət mədəniyyətinin yüksəldilməsində şəhərsalmanın əhəmiyyətini yüksək qiymətləndirən Ulu öndər Azərbaycana rəhbərlik etdiyi ilk günlərindən Bakı, Sumqayıt və Gəncə kimi iri sənaye şəhərlərində şəhərsalmanın planlı şəkildə və elmi əsaslarla aparılmasına ciddi fikir verirdi. Heydər Əliyev şəhərsalma məsələlərindən danışaraq bu sahədə Bakıda xeyli işlərin görüldüyünü xüsusi qeyd edirdi. O, şəhərsalmanın elmi əsaslarla planlaşdırılması və tikinti işlərinin davam etdirilməsinin paytaxt üçün mühüm məsələ olduğunu xüsusi vurğulayırdı.

1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Bakıda Beynəlxalq Bankın yeni binasının açılışı mərasimində çıxışı zamanı səsləndirdiyi bu sözlər onun vətənə hədsiz məhəbbətini, işinə münasibətini, quruculuq və yaradıcılıq həvəsini çox gözəl əks etdirir: "Mən şəhərin hər bir daşını, hər bir küçəsini, binasını özüm üçün doğma hesab edirəm. Əgər hər kəs millətini, şəhərini, Vətənini və paytaxtımız olan Bakını sevirsə, belə hissiyyatla yaşamalıdır".

Respublikada mənzil tikintisi və şəhərsalma məsələlərinə qayğı və diqqətlə yanaşan Heydər Əliyev əhalinin mənzil-məişət şəraitini yaxşılaşdırmaq və urbanizasiya prosesini məqsədyönlü şəkildə inkişaf etdirmək üçün əvvəlki illərdə şəhərsalma ilə bağlı görülən tədbirlərin həyata keçirilməsində buraxılmış nöqsanları ciddi tənqid edirdi. Onun sözlərinə görə, həyata keçirilən tədbirlər kompleksi şəhərsalma və əhalinin yerləşdirilməsi məsələlərinin həllindəki ciddi nöqsanları aradan qaldırmaq üçün çox vacibdir. O, yeni yaşayış kvartallarının salınmasının, köhnə şəhərlərin bərpa olunaraq yenidən qurulmasının, abad kənd və qəsəbələrin salınmasının şəhər və kənd əhalisinin həyat şəraitinin bir birinə yaxınlaşmasına kömək edəcəyinə inanırdı və bu məqsədlərə doğru qətiyyətlə irəliləyirdi.

Zaman Heydər Əliyevin şəhərsalma ilə bağlı olan müdrik və uzaqgörən siyasətinin düzgün perspektivli olduğunu bir daha sübut etdi. Hazırda Bakının bir çox yerlərində müasir layihələr əsasında tikilən çoxsaylı hündürmərtəbəli yaşayış evlərinin və ictimai binaların şəhərə yaraşıq verməsi, bütövlükdə paytaxtda aparılan geniş abadlıq işlərinin nəticələri dahi rəhbərin həmin illərdə irəli sürdüyü təşəbbüslərin uğurla həyata keçdiyini göstərən faktlardır.

Heydər Əliyev yeni tikilən binalarda milli memarlıq formalarına geniş yer verməyi, binaların interyer və eksteryerlərində milli naxışlardan səmərəli istifadə etməyi tövsiyə etmişdir ki, bu da Ulu öndərin milli mədəniyyətimizə dərin məhəbbətini göstərən amillərdəndir. Dahi rəhbər mənzil tikintisində Şərq üslubuna, milli mədəniyyətimizə sadiq qalmağa üstünlük verir və bunu hamıya xatırladırdı. Onun daim vurğuladığı məsələlərdən biri memarların, layihəçilərin öz işlərində Azərbaycan memarlığının binalara Şərq koloriti verən ünsürlərindən geniş istifadə etməsi ilə bağlı olmuşdur. O bildirirdi ki, inşa edilən ansambllar və ayrı-ayrı tikililər Bakının sabahıdır və bunlar gələcək nəsillərimizi də sevindirməlidir.

Heydər Əliyev yeni inşa edilən binaların həm müasir, həm gələcək tələblərə cavab verməsinin inşaatçıların bir nömrəli vəzifəsi olduğunu deyirdi. Bu baxımdan yaxın gələcəkdə Azərbaycanda yeni-yeni binaların yüksələcəyinə şübhə etmirdi. O inanırdı ki, tikilən hər bir yeni bina öz memarlıq keyfiyyətlərinə və funksionallığına görə nə qədər müasir olarsa, bir o qədər də insana yararlı olacaq, şəhərin mənzərəsini zənginləşdirəcəkdir.

Bütün bu faktlardan aydın olur ki, respublikamızın iri şəhərlərində şəhərsalma işlərinin elmi əsaslarla və uzaqgörənliklə planlaşdırılması, urbanizasiyanın tələblərinə əməl edilməsi, bacarıqlı və sərişteli rəhbər olan Heydər Əliyevin təşkilatçılığı ilə əlaqədardır. Bu baxımdan Ulu öndərin uzaqgörənliyi ictimai həyatın başqa sahələrində olduğu kimi, şəhərsalma, urbanizasiya, məişət mədəniyyəti və sosial-ekologiya sahəsində də özünü göstərməkdədir.

Müasir Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdiyi illər ərzində mürəkkəb və eyni zamanda, şərəfli bir yol keçmişdir. Ulu öndərimiz Heydər Əliyevin və Onun ideyalarının layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılmış genişmiqyaslı islahatlar ölkəmizdə sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına, əhalinin maddi rifahının daha da artmasına xidmət etmişdir. Əsası Ümummilli lider tərəfindən qoyulmuş və bu gün uğurla həyata keçirilən uzaqgörən siyasət sayəsində bir çox sosial məsələlər öz həllini tapmış, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və həyat şəraitinin daha da yüksəldilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

Eyni zamanda, qeyd olunmalıdır ki, ötən son illərdə Azərbaycanda həyata keçirilən tikinti işlərinin həcmi 8-10 dəfəyədək artmış, iqtisadiyyatın bu sektoru sürətlə inkişaf edən sahələrdən birinə çevrilmişdir. Bu dövr həm də Azərbaycanda tikinti sənayesində yeni sahələrin yaranmasına səbəb olmuşdur. Qeyri-neft sektorunun inkişafı, tikinti sektorunda müşahidə edilən yüksəliş, ilk növbədə, tikinti materialları sənayesinin yenidən canlanması ilə nəticələnmişdir. Azərbaycanda yeni texnologiyalar əsasında işləyən sement zavodları tikilmiş, metal konstruksiyaları, müasir tikinti materialları istehsal edən müəssisələr yaradılmışdır.

Bu gün zəngin tarixi ənənələrə köklənən Azərbaycanın iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafı, vətəndaşının mənafelərinin qorunması, onun sosial müdafiəsinin gücləndirilməsi, həyat keyfiyyətinin artırılması, ölkənin beynəlxalq nüfuzunun möhkəmlənməsinə hədəflənən dövlət siyasətinin qətiyyətlə reallaşdırılması prosesi dönməzdir. Bütün bunların əsası XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi dahi şəxsiyyət, idarəçilik sahəsində böyük və təcrübəli siyasət adamı, görkəmli dövlət xadimi və müasir Azərbaycan Respublikasının banisi Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Rahad Qəribov,
AzMİU-nun Tikinti iqtisadiyyatı fakültəsinin dekanı,
texnika elmləri namizədi

"HEYDƏR ƏLİYEV MÜTƏRƏQQİ MƏHKƏMƏ-HÜQUQ İSLAHATLARININ MÜƏLLİFİDİR"- SUMQAYITDA KONFRANS

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə ölkə Prezidenti İlham Əliyev tərəfindən elan olunmuş 2023-cü il "Heydər Əliyev İli" çərçivəsində ədliyyə orqanlarında və məhkəmələrdə Ulu Öndərin zəngin irsinə həsr olunan silsilə tədbirlər davam etdirilir.

Hakimiyyet.info.az xəbər verir ki, aprelin 17-də Ədliyyə Nazirliyi tərəfindən Sumqayıt Apellyasiya Məhkəməsinin birgə təşkilatçılığı ilə Sumqayıtda gənclər üçün "Heydər Əliyev mütərəqqi məhkəmə-hüquq islahatlarının müəllifidir" mövzusunda konfrans keçirilib.

Tədbirdə Ədliyyə Nazirliyinin məsul işçiləri, Sumqayıt apellyasiya və birinci instansiya məhkəmələrinin hakimləri, məhkəmə aparatının əməkdaşları, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin və Sumqayıt Dövlət Universitetinin rəhbərliyi və çoxsaylı tələbələr iştirak ediblər.

Əvvəlcə Ümummilli Liderin Sumqayıt şəhərində abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub və əziz xatirəsinə dərin ehtiram bildirilib. Həmçinin gənclər Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən maraqlı ekspozisiyalar tanış olub, Ümummilli Liderə həsr olunan filmə baxıblar. Heydər Əliyev Mərkəzi ilə tanışlıq tələbələrdə xoş və zəngin təəssürat yaradıb.

Sumqayıt Məhkəmə Kompleksində davam edən tədbiri Ədliyyə Nazirliyi İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova açaraq xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətləri olan dahi öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunan tədbirlərdən bəhs edib. Bildirib ki, Ümummilli Liderin hər kəsə örnək olan tükənməz irsi daim öyrənilməli və ondan bəhrələnilməlidir. Bugünkü tədbirin məqsədi məhz Heydər Əliyevin dühası ilə bərqərar olmuş məhkəmə-hüquq sisteminin fəaliyyəti və aparılan islahatlar barədə tələbələri məlumatlandırmaqdır.

Sonra Ümummilli Liderin mənalı ömür yoluna və titanik fəaliyyətinə həsr olunan film nümayiş etdirilib.

Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayev çıxış edərək Ulu Öndərin müasir müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılmasında rolunu qeyd edib, dahi rəhbərin təməlini qoyduğu və ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə aparılan ardıcıl tədbirlər və yeniliklər barədə tələbələri məlumatlandırıb, Sumqayıtda müasir Məhkəmə Kompleksinin inşasını bu islahatların mühüm tərkib hissəsi olduğunu bildirib.

Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı Zaur Əliyev Ədliyyə Nazirliyi ilə sıx əməkdaşlığı, "Heydər Əliyev İli" çərçivəsində keçirilən birgə tədbirlərin tələbələr üçün faydasını qeyd edib, ölkəmizdə hüquq elminin və təhsilinin Ulu Öndərin rəhbərliyi dövründə yeni inkişaf dövrünə qədəm qoyduğunu, Ümummilli Liderin Hüquq fakültəsinə xüsusi qayğısını, milli, o cümlədən hüquqşünas kadrlarının yetişdirilməsində əvəzsiz rolunu vurğulayıb.

Çıxış edən Sumqayıt Apellyasiya Məhkəməsinin hakimləri İlqar Dəmirov və Ruhiyyə Əsgərova əbədiyaşar liderin hər zaman qanunçuluq, haqq və ədalət tərəfdarı olduğunu, fəaliyyətinin bütün dövrlərində məhkəmə, ədliyyə və digər hüquq mühafizə fəaliyyətinə qayğılı münasibət göstərdiyini bildirib, Ümummilli Liderin müəllifi olduğu üçpilləli yeni məhkəmə sistemi, onun keçdiyi müasir inkişaf yolu barədə ətraflı məlumat veriblər.

Tədbirdə sual-cavab sessiyası keçirilərək tələbələri maraqlandıran suallara aydınlıq gətirilib, maraqlı diskussiyalar aparılıb.

Konfrans çərçivəsində gənclər Sumqayıt Məhkəmə Kompleksində yaradılan müasir şəraitlə, o cümlədən ictimai və inzibati zonalar, məhkəmə iclas zalları, hakimlər üçün və digər otaqlarla, "Elektron məhkəmə" informasiya sistemi və tətbiq edilən rəqəmsal innovasiyalarla yaxından tanış olublar.

Sonda xatirə şəkli çəkdirilib.

Oxucularımıza təqdim etdiyimiz bu kitabın müəllifi rusiyalı araşdırmaçı publisist Modest Kolerovdur. Onun ermənilərin "milli qəhrəmanı", faşist xislətli Njde Qaragenin fəaliyyətində yeni arxiv sənədlərin aşkar edilərək kitab şəklində dünya ictimaiyyətinə çatdırması bir daha sübut edir ki, faşizmə barışmayan dünya erməni xislətini də tanımalı, mübarizə sürətlə davam etməlidir.

QAREGİN ƏSL ERMƏNİ FAŞİSTİ OLUB

Гарегин Нжде: миф и реальность

(Əvvəli ötən sayımızda)

Нжде: Я написал Айку Асатряну, чтобы он набрал группу армян в Болгарии для отправки в Берлин... группа была собрана - 31 человек. Их отправил в Берлин некто Аствацатрян (Нерсес Аствацатрян, был арестован. - А. А.), который имеет скобяной магазин в Софии. Они двумя потоками были оправлены в Берлин... оттуда их переправили в Хохен-Бинде, где была открыта школа.

Следователь: Перечислите те лица, что тренировались в Хохен-Бинде.

Нжде: В основном в школе была молодёжь, поэтому всех не знаю, узнаю только в лицо. Из них близко знал нескольких - Маркус Маркусян из города Сливен, Григор Бостанджян из Бургаса, Оник Петросян из Сливена, Абро Григорян из Софии, Мартик, фамилии не помню, был из Пловдива. Фамилии остальных не помню, но всех знаю в лицо, там я бывал несколько раз, встречался со всеми.

Следователь: Как сложилась дальнейшая судьба слушателей школы?

Нжде: Всех слушателей оправили в Крым... дабы оттуда перевезти в Армению для совершения диверсий.

Следователь: Почему не осуществилась отправка диверсантов?

Нжде: Всё это происходило весной 1943-го, в это время уже началось наступление Красной Армии, так что не могло быть и речи про отправку группы, немцы отступали.

Следователь: Что скажете о лагере в городе Замберг?

Нжде: Это лагерь СС, где было несколько групп, состоящих из различных кавказских национальностей... я узнал, что внутри моей группы, которая готовилась к действиям против Турции, проводится разлагающая работа и эту работу осуществлял завербованный со стороны Дро Седрак Джалалян, их целью было перетянуть группу на свою сторону, чтобы в дальнейшем переправить в тыл Красной Армии. Всем этим Дро занимался ещё с начала войны. Внутри группы произошёл бунт против Джалаляна, члены группы взяли его под арест и конфисковали имевшуюся у него переписку с немецким командованием, в ней Джалалян обвинял меня и Айка Асатряна в работе против немцев и требовал передать Дро руководство группой. Я отбыл в Берлин для сглаживания этого инцидента, получил приглашение от немецкого майора Энгельхаупта посетить гостиницу "Эдем", где остановился Дро. Дро попросил забыть прошлые обиды, объединить наши усилия в пользу Германии и усилить действия армян диаспоры против Советского Союза. Дро сказал, что немцы недовольны нашими разногласиями. Это же подтвердил майор Энгельхаупт. Он добавил, что моя группа будет поделена на три части: одна часть должна быть распущена, как бесполезная, другая часть должна быть отправлена на службу в легионе, а третья часть должна быть передана в распоряжение Дро...

Следователь: Продолжайте свои показания о поездке в Берлин.

Нжде: Я написал письмо в Софию, Айку Асатряну, с предложением набрать группу в составе 30 человек и ему вместе с ними приехать в Берлин. Спустя несколько дней после получения моего письма, во главе с Айком Асатряном в Берлин пожаловала группа молодых армян. Нет, путаю, сперва в Берлин приехали Айк Асатрян, Седрак Джалалян и С. Петросян. А группа, которая была набрана для прохождения подготовки в Берлине, прибыла в два потока. По прибытии группы Джалалян и Петикян поехали в селение Хохен-Бинде, где группа нашла пристанище в лагере. А я и Айк Асатрян остались в Берлине, чтобы заниматься своими делами, связанными с армянским вопросом.

Следователь: Представьте имена и фамилии входящих в группу армян, которые прибыли в Берлин для прохождения подготовки.

Нжде: В составе этой группы пребывали следующие лица:

- Маркосян Маркус, 25 лет, беженец из Западной Армении, живёт в городе Сливен, по профессии, кажется, сапожник;
- Петросян Оник, 30 лет, турецкий армянин, переселенец, парикмахер, живёт в Сливене;
- Бостанджян Григор, 30 лет, турецкий армянин, имеет книжный магазин, живёт в Бургасе (арестован. - А. А.);
- Петикян Срвасар, 30 лет, турецкий армянин, офицер запаса болгарской армии. Сын владельца ковроткацкого предприятия, живёт в селении Панапорица, что неподалёку от Пловдива;
- Джалалян Седрак, 60 лет, эмигрировал из Советской Армении в 1920?21 годах. Учитель, из города Варна. Сейчас в Берлине, где присоединился к группе Дро;
- Тамазян Арам, 25 лет, турецкий армянин, коммерсант, из Варны, вместе с Джалаляном остался в Берлине, присоединился к группе Дро;
- Григорян Абрам (Абро), 60 лет, турецкий армянин, рабочий, жил в Софии, улица Сафрона. В первые дни по прибытии в Берлин заболел, был перемещён в больницу, однако не знаю, где теперь он может находиться;
- Минасян, имени не знаю, 27 лет, рабочий, турецкий армянин, живёт в Варне;
- Мартик, фамилии не знаю, 50 лет, турецкий армянин переселенец, слесарь, имеет слесарную мастерскую в Пловдиве (арестован. - А. А.);
- Оник, фамилии не знаю, 25?30 лет, турецкий армянин, живёт в Софии, сапожник.

Фамилии остальных не знаю. Их хорошо знает доктор Айк Асатрян, он в Софии, в доме своего свояка, который владеет кофейней. Его адрес можно узнать посредством армянской церкви. Список всей группы, прибывшей в Берлин, составил доктор Асатрян (нам неизвестно, обратились ли чекисты за помощью в местную церковь в поисках Асатряна, как советует Нжде, но вскоре в Софии был обнаружен и арестован Айк Асатрян. - А. А.).

(Davamı gələn sayımızda)